Mingəçevir

# MƏDƏNİ XİDMƏT YÜKSƏLDİLİR

Mingəçevir şəhər MKS-ə 16 kitabxana daxildir. M.P.Vaqif adına mərkəzi şəhər kitabxanası, X.B.Natəvan adına mərkəzi uşaq kitabxanası və 14 filial-kitabxana.

Bu kitabxanaların ümumi kitab fondu 313132 nüsxədir. 2005-ci ildə MKS 9929 nüsxə latın qrafikalı ədəbiyyat alınmışdır. Bu kitablardan 9250 nüsxəsi Azərbaycan Respublikasının Prezidentinin 2004-cü il tarixli 56 saylı sərəncamı ilə alınmışdır. 414 nüsxə Respublika Kitabxana Kollektorundan, 265 nüsxə isə ABŞ səfirliyi tərəfindən hədiyyə edilmişdir.

Kitabxanaların dövrü mətbuata olan tələbatını ödəmək üçün 16 adda qəzet və jurnala abunə yazılışı həyata keçirilmişdir. Kitabxanaların xidmətindən bu il 34653 oxucu istifadə etmişdir. 2005-ci ilin aprel ayından kitabxanada ABŞ-ın Azərbaycandakı səfirliyi tərəfindən RKMM açılmışdır. Mərkəzdə 5 kompüter, 1 ədəd printer, 1 ədəd generator yerləşdirilmişdir. Hal-hazırda mərkəzdə kurslar təşkil olunmuşdur. Bu kurslarda kitabxana işçiləri kompüter dərsləri keçir. Kitabxanaya daxil olan ədəbiyyat haqqında məlumatı oxuculara çatdırmaq üçün sərgilər təşkil olunmuşdur.

Milli bayramlar və milli təqvim günləri, şair və yazıçıların, görkəmli dövlət xadimlərinin yubileyləri ilə əlaqədar kitabxanalarda sərgilər, kitab müzakirələri, oxucu konfransları, biblioqrafik icmallar, mərkəzlər təşkil olunmuşdur. Belə ki, Milli matəm günü olan «20 Yanvar» və «Xocalı faciəsi» ilə əlaqədar bütün kitabxanalarda sərgi, «Şəhidlər ölmür», «Haray ellər, haray», «Xocalı-qan yaddaşımız», «Əsrə bərabər gün» və s. mövzularda tədbirlər keçirilmişdir.

8 Mart Beynəlxalq qadınlar günü, Novruz bayramı münasibətilə «Analar dünyamızdır», «Bahar gəldi», «Yaz bayramı, saz bayramı», habelə Azərbaycan Respublikasının Prezidentinin 6 iyul 2004-cü il tarixli 303 saylı sərəncamı ilə əlaqədar Mədəniyyət Nazirinin 23 iyul 2004-cü il tarixli 285 saylı əmri ilə əlaqədar «Qələbənin 60 illiyi» ilə bağlı tədbirlər keçirilmişdir.

Şair və yazıçılardan Adil Babayevin 80 illiyi, Zəlimxan Yaqubun 55 illiyi, Şəhriyarın 100 illiyi, F.Qocanın 70 illiyi, S.S.Axundovun 130 illiyi, B.Vahabzadənin 80 illiyi, Ü.Hacıbəyovun 120 illiyi ilə əlaqədar sərgilər təşkil olunmuşdur.

***Xuraman Aslanova***